# MINEPS VII konfransına hazırlıqla bağlı ilk iclas






Aprelin 12-də bədən tərbiyəsi və idman üzrə nazir, həmçinin yüksək vəzifəli şəxslərin VII beynəlxalq konfransına (MINEPS VII) hazırlıqla bağlı Təşkilat Komitəsinin ilk iclası keçirilib.

Ötən ay Parisdə UNESCO-nun qərargahında 100-dək ölkənin iştirakı ilə ilk təqdimatın baş tutduğunu qeyd edən Fərid Qayıbov bildirib ki, hazırlıq işləri ilə bağlı komitə nəzdində işçi qrup fəaliyyət göstərir.

İclasda MINEPS VII konfransına hazırlıq işləri barədə təqdimat dinlənilib və Təşkilat Komitəsinin üzvü olan aidiyyəti qurumların təmsilçiləri ilə müzakirələr aparılıb. Bildirilib ki, 150-dən çox ölkənin idman nazirləri səviyyəsində təmsil olunacaq MINEPS VII konfransı UNESCO-nun idman sahəsi ilə bağlı beynəlxalq tədbiridir.

Qeyd edək ki, bədən tərbiyəsi və idman üzrə nazir, həmçinin yüksək vəzifəli şəxslərin VII beynəlxalq konfransı 26-29 iyun tarixlərində Bakıda keçiriləcək.

# Gənclərə nüfuzlu jurnallara elmi məqalə yazmaq qaydaları öyrədilir

Elm və Təhsil Nazirliyinin Aşqarlar Kimyası İnstitutunda gənc alim və mütəxəssislər üçün "Nüfuzlu jurnallara məqalələrin yazılması qaydaları" mövzusunda maarifləndirici seminar keçirilib.

Təqdimatla çıxış edən institutun icraçı direktoru kimya elmləri doktoru, dosent Əfsun Sucayev bildirib ki, bu mövzularda keçirilən seminarlar akademik elmlə məşğul olmağa yeni başlayan gənc tədqiqatçılar — doktorant, dissertant, magistrantlar üçün böyük əhəmiyyət daşıyır. Çünki onlar həm nəzəri biliklər əldə etmək, həm tədqiqat aparmaq bacarıqları və vərdişləri mənimsəməklə yanaşı, həm də əldə etdikləri elmi nəticələrin məqalə şəklində yazılması, dərc edilməsi qaydalarını öyrənmiş olurlar.

Ə.Sucayev qeyd edib ki, çox-çox əvvəllər dünyanın aparıcı elm mərkəzləri, elmi bazaları və elmi jurnalları ilə beynəlxalq əməkdaşlıq mümkün olmurdu: "1965-ci ildən fəaliyyət göstərən Aşqarlar Kimyası İnstitutunun alimləri sovet və müstəqilliyimizin ilk illərində elmi əsərlərini ən yaxşı halda Rusiya jurnallarında dərc etdirirdilər. Həmin jurnalların bəziləri istisna olmaqla, əksəriyyəti indinin özündə açıq akademik sistemlərdə görünmür. Ona görə də sovet dövründə nəşr olunan məqalələrə dünya alimləri tərəfindən istinad edilməsi mümkün olmamışdır".

Alim bildirib ki, bu mövzuda təqdimat Elsevier, Springer, Wiley, Taylor&Francis, Web of Knowledge nəşriyyatlarının nəşr tələbləri və tövsiyələri əsasında hazırlanıb.

Ə.Sucayev vurğulayıb ki, həm elmi məqalələrin beynəlxalq standartlara uyğun hazırlanması, həm də dünyanın aparıcı nəşrlərinə çıxış imkanlarının genişləndirilməsi üçün qoyulan tələb və qaydalara düzgün əməl etmək lazımdır, həmçinin məqalələrin dünyanın aparıcı elmi bazalarında ("Web of Science", "Scopus") arxivləşən jurnalların tələblərinə uyğun tərtib olunub yayınlanması üçün bu seminarın müsbət rolu olacaq.

İcraçı direktor seminar iştirakçılarına məqalələrin dünyanın ən məşhur nəşriyyatlarının müxtəlif, yüksək impakt faktorlu, nüfuzlu jurnallarının qaydalarına uyğun şəkildə tərtib olunması, xarici dildə səlis və qrammatik nöqteyi-nəzərdən səhvsiz yazılması, həmin jurnallara onlayn formatda göndərilməsi qaydaları haqqında müfəssəl məlumatlar verib.

İcraçı direktor deyib ki, institutda çalışan alimlərin məqalələrinin yüksək indeksə malik jurnallarda nəşrinin artırılmasına bir sıra dəstək tədbirləri həyata keçirilir və bundan sonra belə maarifləndirici seminarlar da mütəmadi davam etdiriləcək.

Təqdimat zamanı gənclərin sualları da cavablandırılıb.

# Mingəçevir Dövlət Universitetinin koordinatorluq etdiyi beynəlxalq layihənin açılış tədbiri keçirilib



Aprelin 12-də Mingəçevir Dövlət Universitetində (MDU) bu ali təhsil müəssisəsinin koordinatoru olduğu "Azərbaycan ali təhsilində davamlı sahibkarlıq ekosisteminin gücləndirilməsi" (Enhancing Sustainable Entrepreneurial Ecosystem in Higher Education of Azerbaijan - ENGAGE) mövzusunda Erasmus+ layihəsinin açılış mərasimi keçirilib. İştirakçıları salamlayan MDU-nun rektoru Şahin Bayramov tədbiri universitet üçün əlamətdar hadisə kimi dəyərləndirib. MDU-nun Azərbaycanda koordinator statusunda Erasmus+ proqramının qalibi olan ilk region universiteti olduğunu vurğulayan rektor göstərilən dəstəyə görə Elm və Təhsil Nazirliyinə, Mingəçevir şəhər İcra Hakimiyyətinə, tərəfdaş yerli və xarici universitetlərə təşəkkürünü bildirib, layihənin ərsəyə gəlməsində əməyi olanlara minnətdarlığını ifadə edib.

Avropa Komissiyası tərəfindən maliyyələşdirilən və 2023-2025-ci illəri əhatə edən sözügedən beynəlxalq layihənin əsas gözləntilərindən bəhs edən Ş.Bayramov qeyd edib ki, layihə ölkəmizin müvafiq universitetlərində sahibkarlıq ekosisteminin gücləndirilməsi, akademik heyətin və tələbələrin sahibkarlıq düşüncəsinin inkişaf etdirilməsi, universitetlərimizdə innovativ yanaşmanın təkmilləşdirilməsi, tədris prosesinin məzmununda praktiki komponentlərin artırılması, startap fəaliyyətlərinin və universitet - sənaye əməkdaşlığının genişləndirilməsi məqsədi daşıyır. Layihənin uğurla icra olunacağına əminliyini bildirən rektor bütün tərəfdaşları fəal iştirak etməyə və layihə çərçivəsində təqdim edilən imkanlardan faydalanmağa dəvət edib.

Sonra Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov əldə edilən uğur münasibətilə universitet kollektivinə təbriklərini çatdırıb, layihə çərçivəsində yaradılan tərəfdaşlıqların əhəmiyyətindən bəhs edib. Təhsilin inkişafına göstərilən dövlət qayğısından danışan İ.İsmayılov layihəni son illər ərzində MDU-nun beynəlxalq əlaqələrinin inkişafının uğurlu nəticələrindən biri kimi qiymətləndirib.

Tədbirdə çıxış edən elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli hazırda MDU-nun modernləşmə mərhələsində olduğunu və bu istiqamətdə dövlət tərəfindən həyata keçirilən tədbirlərdən söhbət açıb. Layihə üçün seçilmiş mövzunun bütövlükdə milli ali təhsil və innovasiya ekosistemi üçün önəmini diqqətə çatdıran N.Məmmədli layihənin koordinatorunu və tərəfdaşlarını Elm və Təhsil Nazirliyinin adından təbrik edib. Bildirib ki, əldə edilən uğur yeni dövrün universitetinə çevrilməyi hədəfləyən MDU-da son dövrdə həyata keçirilən sistemli keyfiyyət dəyişikliklərinin real nəticələrindən biridir.

Azərbaycanda Erasmus+ ofisinin rəhbəri Pərviz Bağırov layihə koordinatoru statusunda qalib gələn ilk regional ali təhsil müəssisəsi olması münasibətilə MDU kollektivini təbrik edib. Erasmus+ proqramının universitetlər üçün təqdim etdiyi imkanlardan bəhs edən P.Bağırov ENGAGE layihəsinin uğurla icra olunmasına zəruri dəstəyin göstəriləcəyini bildirib.

Daha sonra layihə çərçivəsində tərəfdaş yerli ali təhsil müəssisələrinin rəhbərlərindən Bakı Biznes Universitetinin rektoru İbad Abbasov, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətov və Azərbaycan Dövlət Aqrar Universitetinin rektor əvəzi Zəfər Qurbanov çıxış ediblər. Çıxışlarda MDU-nun koordinatorluğu ilə icra olunacaq beynəlxalq layihədə tərəfdaş olmaqdan məmnunluqlarını ifadə edən rektorlar region universitetinin bu təşəbbüsünü yüksək dəyərləndirib, müasir dövrdə ali təhsildə sahibkarlıq yanaşmasının aktuallığından söhbət açıb, birgə layihənin qazandıracağı təcrübələrin əhəmiyyətini vurğulayıb və layihənin işinə uğurlar arzulayıblar.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnnovasiyalar Mərkəzinin direktoru Şəbnəm Məmmədzadə layihənin kreativ düşüncəli və sahibkarlıq təfəkkürlü yeni nəslin yetişdirilməsinə verəcəyi potensial töhfələrdən danışıb və layihə çərçivəsində nəzərdə tutulan tədbirlərin uğurla icra olunması üçün təmsil etdiyi qurum tərəfindən müvafiq dəstəyin göstəriləcəyini bildirib.

Estoniya, İsveç, Portuqaliya, İspaniya və Polşanın 5 aparıcı universitetini təmsil edən xarici qonaqlar çıxış edərək Mingəçevir şəhərində və belə bir layihənin tərəfdaşları arasında olmaqdan məmnunluqlarını ifadə ediblər. Təmsil etdikləri universitetlər haqqında ətraflı məlumat verən avropalı mütəxəssislər layihə çərçivəsində öz müsbət təcrübələrini benefisiar qurumlarla bölüşəcəklərini diqqətə çatdırıblar.

Qeyd edək ki, MDU-nun koordinatorluğu ilə hazırlanmış və təqdim edilmiş Erasmus+ layihəsi 2022-ci ildə Avropa Komissiyası tərəfindən maliyyələşdirmə üçün qəbul edilib. Layihə Avropa İttifaqının 5 ölkəsini təmsil edən tərəfdaş universitetlərin müvafiq sahədəki təcrübəsinin öyrənilməsini və bu təcrübədən fayda əldə olunmasını nəzərdə tutur. Layihə çərçivəsində tərəfdaş yerli universitetlərin və qurumların əməkdaşları üçün çoxsaylı təlimlər təşkil ediləcəkdir. 36 ay ərzində icra ediləcək layihənin ümumi büdcəsi 800 min avrodur. Layihədə 4-ü region universiteti olmaqla, ümumilikdə ölkəmizin 11 aparıcı dövlət və özəl ali təhsil müəssisəsi təmsil olunur. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnnovasiyalar Mərkəzi, Azərbaycan Sahibkarlar Konfederasiyası, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası və Azərbaycan HR İnstitutu layihənin qeyri-universitet tərəfdaşlarıdır. Avropa İttifaqı layihədə Lissabon Universiteti (Portuqlaliya), Kataloniya Politexnik Universiteti (İspaniya), KTH Kral Texnologiya Universiteti (İsveç), Tallin Texnologiya Universiteti (Estoniya) və WSG Universiteti (Polşa) ilə təmsil olunur.

# "Təhsilin inkişafında innovativ metodlar"

## Təhsilin İnkişafı Fondu Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş müsabiqə elan edir

Təhsilin İnkişafı Fondu Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Təhsilin inkişafında innovativ metodlar" müsabiqəsini elan edir.

Müsabiqənin məqsədi Ulu Öndərin elmə, təhsilə və gənclərə qayğısını rəhbər tutaraq tələbələrin təhsilin inkişafına töhfə verəcək ideyalarını dəstəkləməkdir.

İki mərhələdən ibarət olan müsabiqədə yerli ali təhsil müəssisələrinin bakalavr və magistrləri aşağıdakı mövzulardan biri üzrə ideya və təkliflərini təqdim etməklə iştirak edə bilərlər:

* inklüziv təhsilin inkişafı;
* qeyri-formal təhsil metodları;
* təhsildə texnologiyanın tətbiqi;
* təhsildə idarəetmə.

I mərhələdə iştirakçılar tərəfindən hazırlanan təqdimatda məsələnin qoyuluşu, innovativ yanaşma və icra planı öz əksini tapmalıdır. Təqdimatlar mövzunun aktuallığı, faydalılığı, məzmun və dizayn kimi meyarlar üzrə qiymətləndiriləcək.

II mərhələdə iştirak hüququ qazanan namizədlər isə təkliflərini müsabiqə mövzuları üzrə peşəkar mütəxəssislərdən ibarət münsiflər heyətinə təqdim edəcəklər.

II mərhələnin meyarları (təqdimat bacarığı, fikirlərin əsaslandırılması və vaxtın idarəedilməsi) üzrə ən çox bal toplayan ilk 3 finalçı qalib olacaq. Təqdimat üçün maksimum müddət 7 dəqiqə müəyyən edilib.

**Mükafatlandırılma aşağıdakı formada aparılacaq:**

I yer — 1000 AZN
II yer — 750 AZN
III yer — 500 AZN

*Müraciət üçün keçid: https://forms.gle/jCg2EvdUvBKVafJA7*

*Müraciət üçün son tarix:* 27 aprel saat 18:00.

**Qeyd:** Təqdimatlar Azərbaycan dilində olmalıdır.

# Sertifikatlaşdırma prosesinə dair görüşlər



## Sertifikatlaşdırılmanın nəticələri təhsilverənlərin karyera inkişafında, əməyin stimullaşdırılması və əməkhaqqının diferensiallaşdırılması tədbirlərində nəzərə alınacaq

Təhsil İnstitutu tərəfindən təhsilverənlərin sertifikatlaşdırılması prosesinə dair maarifləndirici görüşlər davam etdirilir.

Növbəti görüş Qazax-Tovuz Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin Azərbaycan dili və ədəbiyyat, həmçinin ibtidai sinif müəllimlərinin iştirakı ilə təşkil olunub.

Görüş zamanı sertifikatlaşdırılmanın mərhələləri, məzmunu haqqında məlumatlar verilib. Sertifikatlaşdırılmanın nəticələrinin təhsilverənlərin karyera inkişafında, əməyin stimullaşdırılması və əməkhaqqının diferensiallaşdırılması tədbirlərində nəzərə alınacağı bildirilib və müəllimləri maraqlandıran müxtəlif suallar cavablandırılıb.

